Bu gün Gürcüstan prezidenti and içəcək

Yazan
17.11.13 00:42 -



Tiflisdə yeni prezident Georgiya Marqvelaşvilinin andiçmə mərasiminə Gürcüstana dost dövlətlər və beynəlxalq təşkilatlardan 53 rəsmi nümayəndənin iştirak edəcəyi gözlənilir.

Bu haqda ölkənin xarici işlər naziri Mayya Pancikidze açıqlama verib.

Diplomatın sözlərinə əsasən, tədbirə qatılacaq Litvanın prezidenti Dalya Qribauskayte həm ölkəsini, həm də Avropa Birliyini təmsil edəcək. Onun ölkəsi hazırda AB-yə sədrlik edir.

Ermənistandan isə mərasimə xarici işlər və energetika nazirləri qatılacaq.

Xatırladaq ki, andiçmə noyabrın 17-də keçiriləcək.